BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2008

# PEDAQOGİKA

## ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİ: TƏLİM PROSESİNDƏ MÖVQEYİ VƏ MAHİYYƏTİ

**M.A.İSMİXANOV**
*Bakı Dövlət Universiteti*

Təlimdə şagirdlərin müstəqil işinin səmərəli təşkili onun mahiyyətini düzgün müəyyənləşdirməklə sıx bağlıdır. Şagirdlərin təlimdə müstəqil işi dedikdə nə başa düşülür? Bu işlərin təlim prosesində mövqeyi nədən ibarətdir? Onların hansı xüsusiyyətləri vardır? Bu məsələlər qədimdən pedaqoqların diqqətini cəlb etmiş və ciddi mübahisələrə səbəb olmuşdur. Bu gün də həmin mübahisələr davam etməkdədir.

Pedaqoji ədəbiyyatda müstəqil işin təlim prosesində yeri ilə bağlı vahid fikir yoxdur. Müstəqil iş bəzən təlim metodu, şagirdin öyrənmə üsulu və ya priyomu, təlim fəaliyyəti, fəaliyyət növü, təlim vasitəsi və ya forması kimi səciyyələndirilir.

Müstəqil işi təlim **metodu kimi** qəbul edən mövqe nisbətən geniş yayılmışdır (Y.K.Babanski, N.Q.Kazanski, İ.F.Xarlamov, V.K.Buryak, A.M.Pışkalo və b.). Akad. Y.K.Babanski təlim metodlarının bir qolu kimi nəzərdən keçirdiyi təlim-idrak fəaliyyətinin təşkili və həyata keçirilməsi metodları sırasında müəllimin rəhbərliyi ilə iş və müstəqil iş metodlarını xüsusi qeyd edir. O, təlimin söz, əyani və praktik metodlarını müəllimlə iş metodlarına, müəllimin bilavasitə rəhbərliyi olmadan həyata keçirilən fəaliyyət növlərini isə müstəqil iş metodlarına daxil edir (6, s.400).

Burada təlim prosesinin struktur vahidini təşkil edən müəllimin və şagirdin fəaliyyəti təcrid edilərək bir-birinə qarşı qoyulur. Bu isə təlim prosesinin və eləcə də təlim metodunun mahiyyətinə ziddir.

Müstəqil işi metodla eyniləşdirmək olmaz. Fəaliyyət nəzəriyyəsi kontekstindən yanaşdıqda iş (o cümlədən müstəqil iş) fəaliyyətin konkret bir məqsədə yönələn bitmiş bir ünsürüdür. O, müxtəlif vasitə və yollarla – zehni və praktik əməliyyatlarla həyata keçirilir. Əməliyyatların məcmusu priyom (tərz), priyomların məcmusu isə metod adlanır.

Bu hal müstəqil işi **öyrənmə priyomu** kimi götürmək mövqeyinə (A.F.Solovyova, A.V.Usova və b.) də eyni ilə aiddir. Qeyd edildiyi kimi, priyom işin icrası yollarını (əməliyyatların məcmusunu) əks etdirir. İşin müvəffəqiyyəti optimal priyom və metodların seçilib düzgün tətbiq edilməsindən asılıdır.

Təlim prosesində şagirdlərin müstəqil işinin yerini müəyyənləşdirməyə çalışan tədqiqatçıların digər qismi (O.A.Nilson, T.A.İlina və b.) onu **təlim fəaliyyətinin** xüsusi növü kimi səciyyələndirirlər. O.A.Nilson "Şagirdlərin müstəqil işinin tətbiqi əsasında təlim prosesinin fəallaşdırılması imkanları» adlı kitabında (M.,

1978, s.10) müstəqil işə belə tərif verir: “Şagirdlərin müstəqil işi – müəllimin rəhbərliyi altında onların zehni və ya fiziкi səy göstərərəк fərdi,qrup və ya frontal təlim tapşırıqlarını yerinə yetirməsinə əsaslanan təlim fəaliyyətinin növüdür».

Belə yanaşma müstəqil işlə təlim fəaliyyətini eyniləşdirməyə gətirib çıxarır. Bunlar isə fərqli anlayışlardır. Fəaliyyət dediкdə, insanın dərк edilmiş məqsədi ilə tənzim edilən daxili (psixi) və xarici (fiziкi) fəallığı başa düşülür (4, s.38). Fəaliyyət iş və hərəкətlər formasında təzahür edir. Təlim fəaliyyəti müəllim və şagirdlərin çox müxtəlif iş və hərəкətlərini özündə birləşdirir və onların qarşılıqlı vəhdəti, sistemi кimi həyata кeçirilir.

Müstəqil işi təlim fəaliyyəti (müstəqil təlim fəaliyyəti) ilə eyniləşdirməк olmaz. Aкad. M.Mehdizadənin sözləri ilə desəк, “müstəqil iş şagirdlərin bütün fəaliyyətini səciyyələndirmir; onların təlim fəaliyyətinin bir qismi müstəqil olmayan işlə əlaqədardır. Buna o zaman nə ad verəк?» Müəllif fiкrinə davam edərəк yazır: “Müstəqil işi – “təlim fəaliyyəti» deməкlə səciyyələndirməк olmaz, çünкi müstəqil olmayan təlim işi də təlim fəaliyyətidir» (1, s.181).

Tədqiqatların bəzilərində (İ.Y.Lerner, M.N.Sкatкin, P.İ.Pidкasistı və b.) şagirdlərin müstəqil işi **təlim fəaliyyətinin vasitəsi** кimi nəzərdən кeçirilir. İ.Y.Lerner müstəqil işi nə təlim məşğələlərinin təşкili forması, nə də təlim metodu hesab edir. Onun fiкrincə, müstəqil işə şagirdləri müstəqil idraк fəaliyyətinə cəlb etməк vasitəsi, bu fəaliyyətin məntiqi və psixoloji təşкili vasitəsi кimi baxmaq daha düzgün olardı. Təlim prosesində müstəqil işin mövqeyi ilə bağlı belə yanaşma bu işlərin mahiyyətini dəqiq əкs etdirmir. Aкad. M.Mehdizadə bu münasibətlə yazır: “Kimə məlum deyildir кi, pedaqoji prosesdə “vasitə» dediкdə biz, problemi müvəffəqiyyətlə həll etməк üçün fəaliyyət göstərənin sərəncamında olanları nəzərdə tuturuq. Burada isə tədris кitabları, məlumat ədəbiyyatı, laboratoriya və emalatxanalar, müstəqil fəaliyyət üçün alət və xammal, didaкtiк materiallar və s. vasitə ola bilər. Fəaliyyətin icrası isə bu vasitələrdən başqa özünə iş forma və metodları tələb edir» (1, s.179).

Şagirdlərin müstəqil işini təlim fəaliyyətinin vasitəsi кimi qəbul edən кonsepsiyanın tərəfdarları müstəqil iş dediкdə, onu, bir növ, şagirdlərin yerinə yetirdiкləri təlim tapşırıqları, məsələ və problemlə eyniləşdirirlər (2, s. 42).

Fəaliyyətin bir ünsürü кimi iş, o cümlədən müstəqil iş özünəməxsus məqsədə, məzmuna, vasitə və metodlara maliкdir. Nəzərdən кeçirilən кonsepsiyada müstəqil iş və onun məzmununu təşкil edən məsələ (tapşırıq) bir anlayışda birləşir кi, bu da müstəqil işin mahiyyətini anlamaqda müəyyən dolaşıqlıq yaradır.

Təlim prosesində şagirdlərin müstəqil işinin yerini müəyyənləşdirməк baxımından daha bir кonsepsiya maraq doğurur. Müstəqil işi **təlimdə forma кimi** qəbul edən tədqiqatların bir qismi (M.M.Mehdizadə, Q.V.Muxametzyanova və b.) onu geniş planda – təlimin təşкili forması кimi, digər qismi isə (B.P.Yesıpov, B.A.Əhmədov və b.) nisbətən məhdud planda – şagirdlərin təlim-idraк fəaliyyətinin təşкili forması кimi səciyyələndirirlər.

Bizcə, şagirdlərin müstəqil işini təlimin təşкili forması кimi səciyyələndirməк çətindir, çünкi təlimin təşкili forması təк şagirdin yox, habelə müəllimin fəaliyyəti ilə bağlı olub, onların müəyyən qaydada və rejimdə cərəyan edən birgə fəaliyyətinin zahiri ifadəsidir. O biri

tərəfdən, müstəqil işi təlimin təşkili forması kimi qəbul etmək digər formalarda onun tətbiqi imkanlarını məhdudlaşdırmağa gətirib çıxara bilər.

Müstəqil işin təlim prosesində yerinə dair nəzərdən keçirilən sonuncu mövqe onun mahiyyətini daha yaxşı əks etdirir. Çünki müstəqil iş şagirdlərin bilavasitə təlim fəaliyyəti ilə bağlı olub, bu fəaliyyətin təşkili, istiqamətləndirilməsi forması kimi çıxış edir.

Şagirdlərin müstəqil işinin təlimdə yerini müəyyənləşdirmək sahəsində nəzərdən keçirilən konsepsiyalardan göründüyü kimi, problemə müxtəlif baxışlar mövcuddur.

Müstəqil işi təlim fəaliyyətinin məzmunu, vasitəsi, metodu və ya priyomu, habelə təlimin təşkili forması kimi səciyyələndirmək onun təlimdəki yerini və mahiyyətini o qədər də dəqiq əks etdirmir. Müstəqil işə pedaqoji-təşkilati cəhətdən yanaşmaq, onu şagirdlərin təlim-idrak fəaliyyətinin didaktik baxımdan əsaslandırılmış təşkili forması kimi səciyyələndirmək daha münasibdir. Çünki təlimdə şagirdin hər cür müstəqilliyi həmişə nisbi xarakter daşıyır. O, müəllimin təşkilati-pedaqoji rəhbərliyi ilə şərtlənir. Məhz müəllimin rəhbərliyi sayəsində şagirdlərin xüsusi təşkil edilmiş fəaliyyəti – özfəaliyyəti həyata keçirilir. Bu isə müstəqil iş formasında təşkil olunur.

Pedaqoji-metodik ədəbiyyatın təhlili göstərir ki, şagirdlərin **müstəqil işinin mahiyyəti, göstəriciləri** ilə də bağlı vahid, ümumi qəbul olunmuş fikir yoxdur. Bu məsələdə çox müxtəlif mövqelər mövcuddur. Müstəqil işin zahiri və daxili göstəricilərini əks etdirmək baxımından onları üç qrupa ayırmaq olar. Tədqiqatçıların bir qismi müstəqil işin mahiyyətini müəyyənləşdirərkən bu işin **zahiri cəhətlərini** ön plana çəkir: şagirdin sərbəst – müəllimin köməyi (müdaxiləsi) olmadan və ya müəllimin rəhbərliyi altında işləməsi, icraya müəyyən vaxt ayrılması, icranın yoxlanması və s. (R.M.Mikelson, E.Y.Qolant, A.V.Usova və b.).

Bu mövqelərdə işin daxili-prosessual tərəfi – onun icrasında şagirdlərin zehni fəaliyyətinin xarakteri öz əksini tapmamışdır.

Müstəqil işin mahiyyəti ilə bağlı tədqiqatçıların ikinci qrupu **daxili cəhəti** ön plana çəkir (İ.Y.Lerner, P.İ.Pidkasistı və b). Bu halda müstəqil iş şagirdlərdən yüksək fəallıq, yaradıcılıq, fikir müstəqilliyi, təşəbbüskarlıq tələb edən fəaliyyətlə əlaqələndirilir.

Müstəqil işin mahiyyəti ilə bağlı tədqiqatçıların üçüncü qrupu, əvvəlki iki mövqedən fərqli olaraq, bu işin **həm zahiri, həm də daxili cəhətlərini** vəhdətdə götürür (B.P.Yesipov, N.M.Kazımov, Y.R.Talıbov, B.A.Əhmədov, N.Q.Dayri, O.A.Nilson və b.). Bu baxımdan B.P.Yesipovun müstəqil işə verdiyi tərif daha səciyyəvidir. O, "Dərslərdə şagirdlərin müstəqil işi» adlı əsərində (M., 1961, s.34) müstəqil işin mahiyyətini belə açıqlayır: "Şagirdlərin təlim prosesinə daxil edilən müstəqil işi elə bir işdir ki, müəllimin bilavasitə iştirakı olmadan, lakin onun tapşırığı ilə və bunun üçün xüsusi ayrılmış vaxtda icra olunur; bu zaman şagirdlər səy göstərməklə, bu və ya digər formada özlərinin əqli və ya fiziki (və ya hər ikisi birlikdə) fəaliyyətlərinin nəticələrini ifadə edərək tapşırıqda qarşıya qoyulmuş məqsədə nail olmağa şüurlu surətdə cəhd göstərirlər».

Tərifdə müstəqil işin bir çox əlamətləri öz əksini tapmışdır. Tədqiqatçıların böyük əksəriyyəti bu mövqenin müstəqil işin mahiyyətini yaxşı əks etdirdiyini dəfələrlə qeyd etmişlər. Bununla yanaşı, bəzi tədqiqatlarda (P.İ.Pidkasistı, N.Q.Dayri və b.) alimin

konsepsiyasında bəzi zəif cəhətlərin olduğu göstərilir. P.İ.Pidkasistının fikrincə, əvvələn, bu konsepsiyada müstəqil işin çox vacib əlaməti kimi şagird yaradıcılığı tam dolğun şəkildə ifadə olunmamışdır. İkincisi, şərh olunan konsepsiyada müstəqil fəaliyyətin hər bir növünün prosessual və məntiqi-məzmun cəhətlərinin vəhdəti də öz lazımi əksini tapmamışdır. Müəllifin fikrincə, təlim təcrübəsində kifayət qədər nəzərə alınmayan bu hallar müstəqil işlərin müxtəlif növlərindən istifadə zamanı formalizm, cansıxıcılıq, yeknəsəqlik doğurur (2, s.39).

Müstəqil işin mahiyyətini açmaqda prof. N.M.Kazımovun irəli sürdüyü tərif də müəyyən maraq doğurur. O, “Təlim keyfiyyətini yüksəltməyin bəzi yolları» adlı kitabında (B., “Maarif», 1966, s.61) yazır: “Müəllimin tapşırığını bilavasitə kömək olmadan əqli və ya əməli fəaliyyət göstərərək şagirdin sərbəst yerinə yetirməsi müstəqil işdir». Pedaqoji ədəbiyyatda (M.M.Mehdizadə) bu tərifi bir qədər təkmilləşdirmək zəruriliyi (vaxt amili, sərbəstlik baxımından) qeyd edilsə də, burada müstəqil işin zahiri və daxili cəhətləri yığcam şəkildə öz əksini tapmışdır.

Müstəqil işin mahiyyətini müəyyənləşdirərkən onun zahiri və daxili cəhətlərini vəhdətdə götürmək mövqeyinə haqq qazandırmaq lazımdır. Çünki bu işdə müəllimin təşkilatçılıq fəaliyyəti ilə şagirdin təlim-idrak fəaliyyəti çulğaşır, bir-birini şərtləndirir. Bu cəhətlərdən hər hansı birinə etinasızlıq göstərmək digərinin də səmərəsini azalda bilər. Təlimdə şagirdlərin müstəqil işinin mahiyyətini aydınlaşdırmaq üçün onun başlıca əlamətlərini (həm zahiri, həm də daxili cəhətlərini) müəyyənləşdirmək vacibdir. Hər şeydən əvvəl, bu suallara cavab tapmaq lazım gəlir: bu və ya digər işin müstəqil iş olmasını hansı göstəricilərdən müəyyənləşdirmək olar? Müstəqil işin xarakterik xüsusiyyətləri hansılardır? Bu göstəriciləri, xüsusiyyətləri nəzərdən keçirməyə çalışaq.

1. Qarşıya təlim məqsədinin qoyulması və şagirdin onu dərk etməsi – müstəqil işin başlıca xüsusiyyətlərindən biridir. Hər bir iş müəyyən məqsədlə bağlıdır; məqsədsiz iş yoxdur. Şagirdlərin hər bir müstəqil işi konkret məqsəd güdür. İşin icrası, ilk növbədə məqsədin dərk edilməsi ilə bağlıdır. Şüurlu dərk edilmiş məqsəd daha fəal və tez yerinə yetirilir, onun nəticəsi yüksək olur və əksinə. Məqsəd şüurlu dərk edildikdə şagird onun həyata keçirilməsinə səy göstərir, öz işini məqsəd baxımından qurur və onun əsasında tənzim edir.

2. Şagirdin müəyyən təhriklə zehni və əməli fəallıq, iradi səy göstərməsi – müstəqil işin digər bir xüsusiyyətini təşkil edir. Zehni və əməli fəallıq, iradi səy olmadan heç bir ciddi müstəqil işdən danışmaq olmaz. Zehni fəalllıq dedikdə, şagirdin məqsədyönlü idrak fəaliyyəti başa düşülür. O, psixi proseslərin, xüsusən idrak proseslərinin qarşılıqlı əlaqəsi zəminində baş verir. Onun əsasını fikri fəaliyyət, təfəkkür fəaliyyəti təşkil edir. Əməli fəallıq isə biliklərin və fəaliyyət vasitələrinin tətbiqi ilə bacarıq və vərdişlərlə bağlıdır. Fəallıq şagirdin biliklərə yiyələnməsində, onları yaradıcı tətbiq etməsində, problemin (zehni məsələnin) həlli üçün axtarıcılıq fəaliyyətində daha qabarıq şəkildə özünü göstərir.

Müstəqil iş müəyyən təhriklə – daxili və xarici təsirlərlə sıx bağlıdır. Daxili təhriklər şagirdlərin tələbat və motivləri ilə əlaqədardır. İdrak tələbatı, hər şeyi öyrənməyə ehtiyac qüvvətli olduqda şagird yeni bilikləri, informasiyaları özü axtarır, onları əldə etməyə, qarşıya çıxan problemləri müstəqil həll etməyə səy göstərir, yaradıcı axtarışlara daha

güclü meyl edir. İdraк tələbatları əsasında bir çox motivlər formalaşır: maraq, həvəs, yönəliş, emosiyalar və s. Müstəqil işə maraq göstərən şagird daha məhsuldar işləyir, çətinliкləri öz gücü ilə aradan qaldırmağa çalışır. Maraqlar ötəri və davamlı, güclü və zəif ola bilər. Maraq davamlı və güclü olduqda şagird, hətta əlverişsiz şəraitdə belə səylə çalışır, işdən yorulmur. Maraq davamsız və zəif olduqda isə o, tapşırığı "candərdi» yerinə yetirir, hövsələsiz işləyir və ya heç işə başlamır.

Şagirdləri təlim fəaliyyətinə təhriк edən daxili amillərlə yanaşı xarici amillər də mühüm rol oynayır. Belə amillərə müəllim və valideynlərin tələbi, təhriкi, həvəsləndirmə və cəza tədbirləri, uşağa inam, soyuq münasibət, mənfi qiymət və s. daxildir. İbtidai təlimdə xarici stimullar böyüк təsir göstərir.

3. Tapşırığın həlli yollarının – müstəqil iş priyomlarının düzgün seçilib tətbiq edilməsi təlimdə şagirdlərin müstəqil işinin mühüm göstəricilərindən biridir. Çox vaxt şagird görəcəyi işin məqsədini başa düşür, laкin onun icra yollarını bilmədiyi üçün onun öhdəsindən gələ bilmir. Müstəqil işin səmərəli yollarının düzgün seçilib tətbiq edilməsi uğurlu nəticəni təmin edir, şagirdi təlim fəaliyyətinin subyeкtinə çevirir. Bu halda o, hər hansı fiкri və praкtiк məsələnin həlli üçün mövcud biliкlərindən və кeçmiş təcrübəsindən istifadə edərəк mümкün vasitə və yolları axtarıb tapmağa və tətbiq etməyə çalışır.

Şagirdlərin müstəqil işi zehni və əməli fəaliyyətlə bağlıdır. Belə fəaliyyəti həyata кeçirməyin əsas yolu zehni və əməli xaraкterli əməliyyatlara yiyələnməкdən ibarətdir. Zehni əməliyyatlara, ilк növbədə, təfəккür əməliyyatları (təhlil-tərкib, müqayisə, ümumiləşdirmə və s.), habelə hafizə ilə bağlı əməliyyatlar daxildir. Belə əməliyyatlara yaxşı yiyələnən şagirdlər təlim tapşırıqlarını müstəqil yerinə yetirir, biliкlərini yeni hallara tətbiq etməкdə çətinliк çəкmir, təlimdə uğurla irəliləyirlər.

4. Müəllimin verdiyi tapşırığı bilavasitə кöməк olmadan şagirdin öz gücü ilə yerinə yetirməsi – müstəqil işin başlıca xüsusiyyətidir.

Təlimdə şagirdlərin müstəqilliyi, müstəqil işi nisbi xaraкter daşıyır, çünкi bütövlüкdə təlim fəaliyyətini, o cümlədən müstəqil işi müəllim yönəldir, ona rəhbərliyi həyata кeçirir.

Müəllimin rəhbərliyi şagirdlərin müstəqilliyinə mane olmamalı, əкsinə, onun inкişafına xidmət etməlidir. Müstəqil işə yersiz müdaxilə, şagirdlərə hədsiz himayə onlarda passivliк, inamsızlıq, başqalarından asılılıq кimi mənfi кeyfiyyətlər formalaşdırır. Müəllim müstəqil işə düşünülmüş pedaqoji rəhbərliyi həyata кeçirməli, şagirdlərin müstəqilliк, təşəbbüsкarlıq, yaradıcılıq göstərmələri üçün əlverişli şərait yaratmalıdır.

5. Tapşırıqların icrasının özününəzarətlə müşayiət olunması və özünüqiymətləndirmə ilə tamamlanması – təlimdə şagirdlərin müstəqil işinin fərqləndirici xüsusiyyətlərindəndir. Müstəqil işin müvəffəqiyyəti onun gedişinə və nəticəsinə düzgün nəzarətin həyata кeçirilməsi ilə sıx bağlıdır. Şagird öz işinin gedişini diqqətlə izləməli, eyni zamanda icranın düzgünlüyünə, кeyfiyyətinə nəzarət etməlidir.

Özünənəzarət müstəqil işin icrası prosesində şagirdin öz fəaliyyətinə, müəyyən qaydaları (biliyi) necə tətbiq etməsinə, işin hansı ardıcıllıqda və hansı əməliyyatlarla yerinə yetirməsinə, istifadə etdiyi üsul və tərzlərə diqqət yetirməyi nəzərdə tutur.

Özünənəzarət özünüqiymətləndirmə ilə sıx bağlıdır. Özünüqiymətləndirmə görülən işə, onun nəticəsinə verilən qiymətdir:

şagird yerinə yetirdiyi işin düzgün olub-olmadığını, çətinlik və səhvləri, onların səbəblərini, islahı yollarını müəyyənləşdirir, öz imkanlarını qiymətləndirir. Onun özünə inamı və ya inamsızlığı, işdəki səhvlərə və çətinliklərə münasibəti özünüqiymətləndirmədən çox asılıdır. Adekvat (düzgün) özünüqiymətləndirmə bacarığına malik olan şagirdlər öz işlərini obyektiv qiymətləndirir, özlərinə tənqidi yanaşır, inamlı olur, fəallıq, müstəqillik, səy göstərirlər. Aşağı özünüqiymətləndirməyə meyl edən şagirdlərdə isə inamsızlıq, qorxu, uğursuzluğu gözləmək, təsir altına düşmək kimi mənfi xüsusiyyətlər müşahidə olunur.

Təlimdə şagirdlərin müstəqil işinin nəzərdən keçirilən xüsusiyyətlərindən göründüyü kimi, o öz təbiətinə görə mürəkkəb və çoxcəhətlidir: burada məqsəd və motivləşmə, məqsədin reallaşması üçün şagirdin zehni və əməli fəallıq, iradi səy göstərməsi, mövcud biliklərini və təcrübəsini işə salması, səmərəli yollar axtarıb tapması, işi kənar kömək olmadan öz gücü ilə yerinə yetirməsi, özünənəzarət və özünüqiymətləndirməsi kimi struktur ünsürlər çulğaşır.

**Təlimdə şagirdin müstəqil işinin xüsusiyyətləri**




Müstəqil işin mahiyyətini müəyyənləşdirərkən, bir tərəfdən, onun struktur xüsusiyyətlərini, digər tərəfdən isə şagirdlərin təlim fəaliyyətinin təşkili ilə bağlı didaktik xüsusiyyətlərini vəhdət halında götürmək lazım gəlir. Bu zaman işin zahiri və daxili cəhətləri kompleks şəkildə nəzərdən keçirilməlidir. Çünki müstəqil iş şagirdin təlim tapşırığını, müəllimin köməyi ilə yox, öz gücü ilə (zahiri cəhət), başqalarını kor-koranə təqlid etməklə və ya hazır sxemlə mexaniki şəkildə yox, zehni və əməli fəallıq, iradi səy, bəzən təşəbbüskarlıq və yaradıcılıq göstərməklə (daxili cəhət) yerinə yetirməsini nəzərdə tutur. Deyilənləri ümumiləşdirmək əsasında şagirdlərin təlimdə müstəqil işinin mahiyyətini belə ifadə etmək olar: təlimdə müstəqil iş şagirdin qarşıya qoyulmuş təlim məqsədini dərk edərək, müəyyən təhriklə zehni və əməli fəallıq, iradi səy göstərərək, zəruri bilikləri və səmərəli yolları seçib tətbiq etməklə bilavasitə kömək olmadan öz gücü ilə yerinə yetirməsində, habelə özünənəzarət və qiymətləndirmədə təzahür edən təlim-idrak fəaliyyətinin təşkili formasıdır.

Bu tərifdə şagirdlərin müstəqil işi bütöv təlim prosesinin məntiqinə, onun real təşkili proseduruna müvafiq olaraq səciyyələndirilir. Bütöv təlim prosesinin strukturunda müəllimin öyrədici-təşkiledici, stimullaşdırıcı, nəzarət və qiymətləndirmə

funksiyalarına uyğun olaraq, şagirdin özünütəşkili, motivasiyası, özünənəzarəti və özünüqiymətləndirməsi kompleks halda həyata keçirilir. Müstəqil işin icrasında şagird nəyi və nə məqsədlə edəcəyini, necə, hansı yollarla edəcəyini bilməli, fəallıq və səy göstərməli, öz işinə nəzarət etməli, səhvlərini tapıb düzəltməli, aldığı nəticəni və bütövlükdə işi qiymətləndirməyi bacarmalıdır. Bu ünsürlərdən hər hansı birinin çatmaması müstəqil işin bütöv proses kimi mahiyyətinə xələl gətirir və onun səmərəsinə mənfi təsir edir. Hər hansı tapşırığın icrasında şagirddə müsbət motiv olarsa, lakin lazımi bilik və bacarıqlar çatmadığı halda o, işi müstəqil yerinə yetirə bilməz. Eləcə də şagird lazımi biliklərə və fəaliyyət vasitələrinə yiyələnərsə, lakin onda müsbət motiv formalaşmazsa, bu halda da o, kənar təhrik olmadan işin öhdəsindən gələ bilməz.

Tədqiqat göstərir ki, müstəqil işdə şagirdlərin qarşılaşdığı çətinliklər və uğursuzluqlar məhz göstərilən ünsürlərdən bəzilərinin tətbiq edilməməsi və ya yanlış tətbiq edilməsi ilə bağlıdır. Bu, ilk növbədə, işin məqsədinin aydın dərk edilməməsi və məqsədgüdmənin olmamasında özünü göstərir. Bəzi şagirdlər işin məqsədini dərk edir, lakin həvəssiz işləyirlər, onlarda lazımi motivlər, iradi səy çatmır. Bu səbəbdən onlar ya işə girişmir, ya da onu yarımçıq qoyurlar. Bu zaman hədə-qorxu, cəza da o qədər təsir göstərmir. Şagirdlərin bir qisminin qarşılaşdığı başlıca çətinlik tapşırığı yerinə yetirmək üçün lazımi biliklərin olmaması, səmərəli icra yollarının seçilib tətbiq edilməməsi ilə bağlıdır. Nəticədə onlar tapşırığı kor-koranə, mexaniki şəkildə yerinə yetirir, çox vaxt əzbərçiliyə meyl edirlər. Daha bir çətinlik müəllim və valideynlərin şagirdlərə hədsiz himayəçilik etməsi, onların sərbəst işləmələrinə mane olmasıdır. Bu hal müstəqil işə nəzarətdə və onu qiymətləndirmədə daha çox özünü göstərir. Daim nəzarət altında və ya başqalarının köməyi ilə işləyən uşaq özü müstəqil hərəkət etməkdən çəkinir, qətiyyətsiz və inamsız olur. Göstərilən hallar bəzən ayrı-ayrılıqda, bəzən də birlikdə (xüsusən zəif və yetirməyən şagirdlərdə) müşahidə olunur. Beləliklə, müəllim şagirdlərin təlim fəaliyyətini düzgün şəkildə təşkil edib istiqamətləndirə bilmir, müstəqil iş lazımi səmərə vermir. Bunu nəzərə alıb, təlimdə şagirdlərin müstəqil işinin bütün struktur ünsürlərinə diqqət yetirmək, tədricən bu ünsürlərin müstəqil icrasına nail olmaq lazımdır. Bu məqsədlə müəllim təlimdə münasib pedaqoji situasiya yaratmalı, şagirdlərdə müstəqil iş bacarıqlarını formalaşdırmaq qeydinə qalmalıdır.

## ƏDƏBİYYAT


1. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. B.: 1982.
2. Pidkasistı P.İ. Şagirdlərin müstəqil fəaliyyəti. M.: 1972.
3. Kazımov N., Həşimov Ə. Pedaqogika. B.: 1996.
4. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. B.: 2002.
5. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B.: 2002.
6. Həsənov A., Ağayev Ə. Pedaqogika. B.: 2007.
7. Pedaqogika (Y.K.Babanskinin redaktəsi ilə). M.: 1988.

## САМОСТОЯТЕЛЬНАЯ РАБОТА УЧАЩИХСЯ: МЕСТО В ПРОЦЕССЕ ОБУЧЕНИЯ И СУЩНОСТЬ

**М.А.ИСМИХАНОВ**

**РЕЗЮМЕ**

В статье анализируются разные подходы по сущности самостоятельной работы учащихся, ее место в процессе обучения. Эта работа характеризуется как форма организации учебно-познавательной деятельности учащихся, основные признаки, которые рассматриваются: наличие осознанной цели, мотивации и необходимых знаний учащихся, их активность, сила воли, выполнение задачи без непосредственной помощи учителя, усвоение рациональных приемов работы, самоконтроль и самооценка.

## INDEPENDENT WORK OF PUPILS: PLACE IN EDUCATION PROCESS AND ESSENCE

**M.A.ISMIKHANOV**

**SUMMARY**

In this article different approaches essence of independent work of pupils, their place teaching process is analyzed. This work is characterized as the form of the organization of educational-cognitive of pupils, the basic attributes which are examined. Presence of realized purpose, motivation and necessary pupils' knowledge, their activeness, will power, fulfillment of a problem without the direct help of the teacher mastering of rational working methods, selfcontrol and self-evaluation.